# Lənkəranın kaliforniyalı qonağı



***2010-cu ildə Lənkəranla qardaşlaşmış ABŞ-ın Kaliforniya ştatının Monterey şəhərinin sakini, Monterey–Lənkəran Assosiasiyasının sədri, xanım Nensi Selfric ADA Universitetinin müəllimi Şəfəq Mehrəliyevanın müşayiəti ilə növbəti dəfə Lənkərana dostluq səfərinə gəlib.***

Azərbaycan xalqına qarşı dərin rəğbəti ilə seçilən və hər iki ölkənin xalqları arasında mehriban dostluq və anlaşmanın möhkəmlənməsində xüsusi xidmətləri olan Nensi Selfric dekabrın 20-də Lənkəran ŞİH başçısı Taleh Qaraşovla görüşüb.

Görüş zamanı qonağı salamlamaqdan məmnunluğunu bildirən icra başçısı ABŞ–Azərbaycan əlaqələrinin dinamik inkişafının hər iki ölkənin xalqlarının mənafeyinə uyğun olduğundan razılıqla qarşılandığını qeyd edərək belə səfərlərin ikitərəfli əlaqələrin möhkəmlənməsində əvəzsiz rol oynadığını vurğulayıb. Söhbət zamanı rayon rəhbəri hörmətli qonağa Azərbaycanın əzəli torpaqlarının işğaldan azad olunması ilə başa çatmış 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbədən və pandemiya şəraitinə baxmayaraq rayonun sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən tədbirlər və quruculuq-abadlıq işləri barədə geniş məlumat verib. Səmimi görüşə görə icra başçısına təşəkkürünü çatdıran kaliforniyalı qonaq Azərbaycanda əldə olunan nailiyyətlərin uğurla həyata keçirilən siyasətin bəhrəsi olduğunu və hər dəfə səfərə gələrkən çoxlu yeniliklər gördüyünü və buna ürəkdən sevindiyini söyləyib. O, Azərbaycanda baş verən hadisələri, xüsusilə 44 günlük Vətən müharibəsinin gedişatını diqqətlə izlədiklərini, şəhər və kəndlərin işğaldan azad olunması barədə informasiyaları sevinc hissi ilə qarşıladıqlarını və çoxlu qurbanların olmasına baxmayaraq bu tarixi qələbəni Azərbaycan xalqının qəhrəmanlıq mübarizəsi kimi səciyyələndirdiklərini qeyd edərək şəhidlərin ruhuna rəhmət diləyib. Görüşün sonunda qonağa Lənkəran rayonunda istehsal olunan “Qarabağ” çay kolleksiyası hədiyyə olunub.

Görüşdən sonra xanım Nensi Selfric Lənkəran şəhərinin görməli yerlərinə, Tarix diyarşünaslıq müzeyinə, Əsgər Əliyev adına parkına, Həzi Aslanov parklarına və abidəsinə, Qala xiyabanına baş çəkib, yeniliklərlə yerindəcə tanış olub. Montereyli qonaq səfər proqramı çərçivəsində Lənkəran Şəhidlər Xatirə Abidə Kompleksini, Azərbaycanlıların soyqırımı parkındakı “Ana” abidəsini ziyarət edib önlərinə tər çiçəklər düzüb. Sonra o, Lənkəran Dövlət Universitetində olub rektor, müəllim və tələbələrlə görüşüb Monterey Yarımada Kolleci ilə tələbə-müəllim mübadiləsi məsələlərini müzakirə edib. Qonaq, eyni zamanda, xalçaçılıq müəssisəsində, karamel fabrikinə, hallobonq sitrus bağında və “Yaşıl çay” fermer təsərrüfatlarına baş çəkərək görülən işlərlə tanış olub.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***

Xalq qəzeti.- 2021.- 22 dekabr.- S.10.